

*İltimas SƏMİMİ,*
*Azərbaycan Yazıçılar Birliyi üzvü*
*Prezident mükafatçısı*

## İNTİZAR

Bir qaşıq ümiddir,
Hələ bitməyib.
Bir damla sevincdir,
Hələ göyərir.
Bir ovuc duyğudur,
Hələ kükrəyir.
Coşur dəniz kimi,
Daşır çay kimi
Bahar təravətli
Bu saf sevgimi
Yaşatmaqdadır.

Bir qarış ömürdür,
Sonu bilimir.
Bir səsdir,
Ardınca yüyürüb gəlir.
Bir bulaq suyudur,
Axır, hey axır.
Bir şair ruhudur,
Günəş tək isti.
Bəzən alır məndən
Dərya səbrimi,
Yazdığım hər yeni
şeirlərimdə
Bahar təravətli
Bu saf sevgimi
Yasatmaqdadır.

Bir bağlı qapıdır,
Hələ ki bir kimsə
Aça bilməyib.
Səadət arayır
Hərə özün üçün.
Oda nağıllarda
Min ildən bəri
Dildən-dilə düşüb
Bitib tükənmir.
Sevən ürəklərə verdim
səsimi,
Titrətdi göyləri
Fəryadım, ahım.
Bəlkə də, sevməkdir
Mənim günahım.
İndi də çəkirəm
İntizarını.

10.07.2023.

## ŞAHA QALXIB

Daş dedim yadıma
Xatirələrim
Bir-bir düşdü.
Nə çox imiş
Unutduqlarım.
Xatirimdə toz basmış
Cığırlar,
Qıfıllamış qapılar
Diksindi söz-söz.
Bu da son varaq,
Bitməkdə olan son sətir.
Göz yaşlarını
Kiritmək olmur.
Bu gecə
Yuxusu qarışmış
Yaddaşımın ağrısı şaha qalxıb.

11.07.2023.

## SUVARARDIM

Heç kimin
Yoza bilmədiyi
Ürəyimi parçalayan,
Acı bir yuxudur.
Susuz səhraya bənzəyən
Özgə məkan,
Yad insanlar.
Qəddi əyilmiş
Baxışlarından qəm yağır.
Elə bil vaxtından
Bir az da tez qocalıblar.
Hamı mənə sarı yüyürür,
Sarılıb mənə yad bir cüssə,
Ahı göyləri titrədir.
Nə səmada bir əlçim bulud var,
Nə yerdə bir ağac.
Yuxum qarışmasaydı
Cəhənnım qoxuyan
Bu yerləri göz yaşlarımla suvardım.

13.07.2023.

## UNUDULARIQ

Nə külək kəsilər,
Nə yağış dayanar.
Payız da,
Qış da ömrümüzdən
Gedir.
Bir yandan intizar,
Bir yandan ürəyimizi
Parçalayan ölüm xofu,
Yaz yağışına bənzəyən
Göz yaşımız.
Kəndir kimi
Sivişib ovcumuzdan
Çıxmasın deyə
Yolları ovcumuza alıb
Möhkəm sıxaq.
Bu yollarda
Ayaq izlərimizi yağış yuduqca,
Yaddaşlardan silinib
Unudularıq.

21.07.2023.

## DƏNİZƏ ÜZMƏK YAXŞI

Danışmağa
Nə yaxşı ki, dəniz var.
Hər sözünə
Dalğalar əl edər,
Coşduqca sular
Sahilə çırpılar.
Tənha insanlara
Dəniz də bir təsəllidir.
Balıqlar hər şeydən xəbərsiz
Sahilə üz tutsa da,
Torpaq qarşısında sədd kimi...
Balıqlar hardan bilsin ki,
Torpaq qan qoxuyur.
Qan meydanıdır,
Üstündə qatil gəzir.
Yalan ayaq tutub yeriyir,
Qaynar bulağa dönmüş
Günahsızların göz yaşı
Dənizi sükuta qərq edər.
Atıl dənizin qoynuna,
Bir də geriyə dönmə.
Torpaqda sürünməkdən,
Dənizdə üzmək yaxşı.

11.09.2023.

## BU ƏCƏL SƏNİ

Çıx get, göylər səni alsın qoynuna,
Yerdə nə bir sevinc, nə səadət var.
Bir qaşıq ömürdür yetişər sona,
Dostlar yoxluğuna pərişan olar.

Bir gün haqlayacaq bu əcəl səni.
Yandırar dostları xatirələrin,
Tökər göz yaşını doğmalar belə.
Hər gözəl   məclisdə görünər yerin,
Yaxınlar ah çəkib sızlayar elə.
Bir gün haqlayacaq bu əcəl səni.

Davamı qəm olan, ardı qəm olan,
Bir vaxtsız ölüm var qismətimizdə.
Xəyala qərq olub sızlayan insan,
Daşar çaylar kimi həsrətimiz də.
Bir gün haqlayacaq bu əcəl səni.

20.07.2023.

## UNUDA ÇƏTİN

Baxıram dənizə, dəniz çağlayır,
Gözümün önünə gəlirsən yenə.
Bu sevda nə yaman sınaqlar gördü,
Sənsizlik günlərim bir dağdır mənə.

Nə daş tablanardı, nə dağ dözərdi,
Nə günəş yerində durardı bir an.
Özüm də bilmirəm bu səbir nədir?
Bu qədər həsrətə dözərmiş insan.

Dözdüm, günlər keçdi, aylar ötüşdü,
Dözdüm, şər qarışdı, günəş qürub etdi.
Dözdüm, ay üzünü görməyəndə mən,
Sənsizlik günlərim ömrümdən getdi.

Duydumu qəlbimin ağrılarını,
Yollara boylandım gəlib keçmədin.
Bir sevən ürəyi incitmək günah,
Ürəyim bunları unuda çətin.

21.07.2023.

## BU QİSMƏT

Min illər içimdən axdı su kimi,
Yenə öz-özümlə baş-başa qaldım.
Açılan hər səhər bir arzu kimi,
Əsən küləklərdən ətrini aldım.
Ümid çiləyirdin sən bu yollara,
Yollar yasa badıb, geyinib qara.

Çevirib arxaya boylansan barı,
Acı xatirələr göz yaşın tökür.
Öpüb qucaqlasan sən bu yolları,
Yolların üstünə çən- duman çökür.
Ayrılıq odudan yanıram fəqət,
Bu ömür, bu tale, bu bəxt, bu qismət.

23.08.2023.

## RUHUNU DUYMAYANLAR

Ümidi bir qarış yol, o da yorur şairi,
İsti bahar havası ona qarlı qış kimi.
Nə arzusu göyərir, nə qəlbində sevinc var,
Xəyallara qərq olub yenə çalır qələmi.

Daşı yarıb keçəcək, hər söhbəti, hər sözü,
Dövləti söz, varı söz gecə-gündüz düşünür.
Qaralıdıqca varaqlar, ilhamı qaynar olur,
Yerə-göyə sığmayan qəlbi sözlə döyünür.

Hər yetənin sözünə tablamayır dərd çəkir,
Bəzən küsüb inciyir, parçalanır ürəyi.
Bu da şair taleyi qayğılarla çarpışır,
O sənət dünyasına qurban verir hər şeyi.

Füzulinin ahına dağ da belə tablamaz,
Nəsiminin haqq səsi əsrlərdən yol gəlir.
Nadanların köksünə sancılan bir oxdur, ox,
Sabirin dərdi böyük, səsi ərşə yüksəlir.

Yenə söz meydanında kükrəyir şəlalətək,
İncitməyin şairi deyiləsi sözü var.
Şəhriyarın göz yaşı çağlayan bir ümmandır,
Kimliyini anlamaz ruhunu duymayanlar.

31.07.2023.

